# Yaralı göyərçinin qanadları



**Qərib Mehdi**

(hekayə)

***Əziz kişi aynabənddə oturub uşaqlarını – Mehdini, Nurayı, Gülayı başına toplayıb söhbət edir, arada ömür-gün yoldaşı Günay xanımın təzə dəmlədiyi çaydan qurtum-qurtum içirdi.***

***Uşaqları atalarının bir suala doğru cavab verməsini istəyirdilər. Kim güclüdür? Vitaminli qidalar qəbul edənlər, idmanla məşğul olanlar, yoxsa istirahətini düzgün quranlar? Əziz kişi övladlarına tamam başqa cavab verdi: «İçdən sərbəst, azad olanlar».***

Ərinin cavabını Günay xanım da təsdiqlədi. Uşaqlar isə anlaqsız halda atalarının üzünə baxırdılar. Yəni, başa düşmədik, içdən azad olmaq nə deməkdir? Ata fikrini aydınlaşdırmaq istərkən birdən pəncərəyə bir Göyərçin çırpıldı. Və halsız şəkildə yerə sərildi. Canını onu təqib edən Çalağanın əlindən zorla qurtarmışdı. Günahsız quş başını dik saxlaya bilmirdi. Onu xilas edən qanadları uçardan qalmışdı.

Aynabənddəkilər cəld yerlərindən tərpənib özlərini yaralı Göyərçinin hayına yetirdilər. Bir tərəfdən də Günay xanım özünü hadisə yerinə çatdırıb haraya yetənləri tələsdirdi:

– Lənətə gələsən səni, zalım Çalağan! Az qala günahsız quşu çalıb aparacaqdı. Tez tərpənin, Göyərçini vaxtında xilas etməsək, ölə bilər. Bu ölüm gözümüzün qarşısında olduğu üçün biz də günaha batmış olarıq.

Bütün «briqada» yaralı Göyərçinin qulluğu üçün imkanlarını səfərbər etdi. Baytar həkimilə məsləhətləşdilər, quşa dən aldılar, su qabı ayırdılar, yatacaq yerini düzəltdilər.

Çəkilən zəhmət, göstərilən qayğı öz işini gördü. Yaralı Göyərçin günü-gündən dirçəlməyə başladı. Xüsusilə uşaqlar quşa vurulmuşdular. Onun qayğısına qalmaqdan, onunla oynamaqdan zövq alırdılar.

Axşam olanda daha Göyərçinə bələdçi lazım deyildi. Ev sakinlərindən birinə çevrilmişdi. Yatacaq yerini tanıyırdı. Özü öz ayaqları ilə yatağına çəkilirdi.

Əziz kişi ilə Günay xanım quşun hərəkətini izləyirdilər. Uşaqlar quş dostlarına şeir deyir, mahnı qoşur, sevələyirdilər. Yaralı Göyərçin artıq müəyyən hündürlüyə qanadlana bilirdi. Qanadları getdikcə möhkəmlənirdi. Həm də, deyəsən, azad Göyərçinin canından Çalağanın qorxusu çəkilməkdəydi. Uşaqlar bundan həm sevinir, həm də təşvişə düşürdülər: sağalmaqda olan Göyərçin onları tərk edər, birdən uçub gedə bilərdi.

Günlər keçdikcə tərəflər arasında bağlılıq, ünsiyyət artırdı. Ayrılıq mümkünsüz sayılırdı.

***Quşun azadlıq arzusu bütün ümidlərini qanadlarına bağlamışdı. Tərəfin biri qanadların uçarlığını gözləyir, o birisi isə bu uçarlığın qarşısını necə almaq barədə düşünürdü. Uşaqlar özlərini onlara pənah gətirən Göyərçinsiz təsəvvür etmirdilər. Göyərçinsiz Mehdinin, Nurayın, Gülayın halı necə olardı?.. Yox, uşaqlar ayrılığa imkan verməyəcəkdilər. Fikirləşib, fikirləşib, çətin işin asan həllini tapdılar. Mehdi qayçı gətirdi. Nurayla Gülay ona kömək etdilər. Mehdi hər iki qanadın lələklərini qayçıladı. Uşaqlar sevindilər. Quş qanadlanıb uçub getsəydi, onlar məyus olardılar. Axı bu evdə onun nəyi əksikdi? Göyərçin görmür ki, hamı onun qulluğundadı? Çalağanlı səmada onun nə işi var? Hər şeylə təmin olunmuş təhlükəsiz bir yeri nəyə görə təhlükəli səmaya dəyişməlidi?***

Əziz kişi uşaqlarının bu işindən pərt oldu. Valideynlər uşaqlarını yersiz hərəkətlərinə görə qınadılar. Böyüklər bilirdilər ki, Göyərçin onların evində nə qədər təhlükəsiz şəraitdə olsa da, səmasız özünü əsir kimi hiss edəcəkdir. Quş ömrünün mənası onun qanadı ilə bağlıdır. O, ancaq bu qanadlarla vurğun olduğu əngin səmaya ucala bilər. Onun bütün gücü, azadlığı səmaya qovuşmağındadır.

Əziz kişi heç cür rahatlıq tapmırdı. Mavi səmaya – öz azadlığına can atan yaralı Göyərçin tez-tez onun yuxusuna girirdi. Qanadlarından şikəst edilmiş quşun çırpıntılarına dözmək onun üçün çətin idi. «Eh, uşaqlar, uşaqlar...».

Nə etməli? Gözləməkdən başqa ayrı əlac yox idi. Yaralı Göyərçinin ümidi tamam itməmişdi. O inanırdı ki, nə vaxtsa yenidən mavi göylərə pərvazlana biləcək. Nəhayət, o gün gəlib çatdı. Qanadları bərpa olunmuş Göyərçin həyətdə dövrə vurur, sanki ona qulluq göstərən hamiləri ilə vidalaşırdı. Birdən Göyərçin qanadlarını şappıldadıb səmaya doğru millləndi. O, uçdu, uçdu və tamam gözdən itdi. Valideynlər bu qanadlanmadan bərk sevindilər. Uşaqları isə, əksinə, Göyərçinin əvvəlki həyatına qayıtması məyus etdi. Onlar atalarına üz tutdular. Əvvəlcə Mehdi dilləndi:

– Ata, Göyərçin niyə bizdən ayrıldı? Yoxsa, o bizim qulluğumuzdan razı qalmamışdı? O niyə uçub bizdən uzaqlaşdı?

Ata özünəməxsus təmkinlə bu «niyə»nin səbəbini açdı:

– Allah ona qanadı uçmaq üçün verib. Onun azadlığı uçmağındadır. O, uçanda güclü olur, oğlum.

Sual növbəsi Nuraya çatdı:

– Axı səma tamam təhlükəsiz deyil. O yenə Çalağanla üzləşə bilər. Onda həyatını necə xilas edəcək?

Ata:

– Azadlıq arzusu dəfolunmazdır, qızım.

***Son sualı Gülay səsləndirdi:***

***– O, Çalağandan canını qurtarmaq üçün bizə sığındı. Onların qeyri-bərabər vuruşu nə vaxtsa yenidən başlanacaq. Canında məğlubolma qorxusu olan, səmaya can atmamalıdır. Bu qarşılaşmada ölüm onun nəsibi olar. Niyə zərif və zəif Göyərçin bunu nəzərə almır?***

***Ata:***

***– Səma aşiqləri yeri gələndə həyatını ölümə dəyişməkdən çəkinmirlər, qızım.***

***Ana da atanın dediklərini təsdiq etdi.***

***Atalarının sözləri övladlarına həm də hekayənin əvvəlində verdikləri suallara cavab kimi səsləndi.***

Türküstan.- 2023.- 31 yanvar-6 fevral.- S.4.